Novruz yenicə bitmişdi. Təbiət açılmış, ağaclar çiçəkləmiş, ətraf yaşıllaşmış, kəndimiz başdan-başa güllük-gülüstana dönmüşdü.

Atamın uzayan işlərinə görə bir neçə gün daha kənddə qalmalı olacaqdıq. Məktəbə gecikəcəyimə görə sevinsəmdə burada darıxmağa başlamışdım. Mənim ətrafım, dostlarım demək olar həyatım şəhərdə qalmışdı. İndi isə başımı qata biləcəyim bir məşğuliyyət axtarırdım.

Evdəkilər həmişəki kimi dərs oxu deyərək yaxşı məsləhət verirdilər, amma tətildə dərs etmək...Bunu kim istəyər ki?

Bu sıxıcı anların birində əmim oğlu Rəşad onunla bir yerdə məktəbə getməyimi önərdi. Başlarda tərəddüd etsəmdə təklifi qəbul etdim.

Rəşadla mən 10-cu siniftə oxuyurduq. Onun universitetə qəbul olmaq kimi bir dərdi yox idi. Mən isə səbəbini bilmədən 1-ci qrupa hazırlaşırdım. Nə yalan deyim oxumağa elədə siz deyən həvsim də yox idi. Çünki müəmmada qalmışdım. Evdəkilər başqasıyla danışanda "İndki zamanda oxumaq heçnədi" və ya "sənin ancaq daydayın və pulun olmalıdı" deyirdilər. Gəl ki, mənə isə, ancaq oxu və oxu deyirdilər. Filankəsin uşağı belə oxudu, xalxın uşağı falan yerə qəbul oldu və s.

Qısacası nə edəcəyimi bilmirdim ona görə də hərşeyi axarına buraxıb özüm üçün yaşayacaqdım.

Biz çatdıqda diqqətimi ilk olaraq məktəbin özü çəkmişdi. Yəni bu məktəb idi? Mənə daha çox tərk edilmiş və sökülməyi gözləyən bina kimi gəlmişdi.

Böyük heyrət içində məktəbə daxil olduq. Və mənzərənin davamında da fərqli birşey olmadı. Divarların suvağı getmiş, tavanlar bu dəqiqə başına düşəcəkmiş kimi təsərruat yaradırdı. Hələ ümumiyyətlə köhnəlmiş taxtaların üstündə padvala düşmədən sinifdə 45 dəqiqə qalmaq böyük qəhrəmanlıqdı doğrusu. Bir an şəhərdə yaşadığıma görə içdən və dərin şükr etdim.

# BİR TƏK ONUN XƏYALI VARDI...

## *(hekayə)*

Xülasə mənim donub qalmağıma görə biz dərsə 5 dəqiqə gecikməli olduq. Sinifə girdikdə mən sanki başqa aləmə düşmüşdüm. Özümü burada artıq biri kimi hiss etdim. Partaların arxasından mənə baxan o gözlər... Zaman durmuşdu sanki və bu an heç bitməyəcək deyərkən müəllim məni xilas etdi.

- Bu gün qonağımız var uşaqlar, ona xoş gəldin deyin.

Uşaqların çox azı bu lütufda bulunsa da mənə yetəri qədər kifayət etdi. Beləliklə biz arxa sırada oturduq və dərs başladı.

Pıçılta ilə Rəşad mənə bir-bir sinif yoldaşları haqqında məlumatları ötürməyə başladı. İbrahim yəni kod adı "İBO" sinifin gopçusuydu öz dediyinə görə o, şəxsən Məlikməmmədin yarasına duz basmağına şahidlik etmişdi, İsmayıl biznes sahibi, Xədicə qeybət şahzadəsi, Dəniz qürür abidəsi, Həsən sinifin paxanı, Nazlı sinifin xəbərçisi və s kimi maraqlı məlumatlar əldə emiş oldum.

Demək olar ki, sinifin bütün tərcümeyi halını öyrənmiş oldum. Amma ön – sol partada oturan qız haqqında Rəşadın heçnə deməməyi nəzərimdən qaçmadı.

- Nə əcəb o, qız haqqında birşey demədin?

- Hımm, o, Pərvanədi. Heç kim onunla danışmır (səsini daha da azaldaraq) biraz əqli cəhətdən problemi var dedi.

Daha öncə heç bir vaxt belə birisinə rastlamamışdım doğrusu. Pərvanə orta boylu, qarabəniz qızdı. Saçları qara və qısaydı. Qonur gözlərində nəzərə çarpacaq qədər çəplik vardı. Tənəffüsdə onun yeriyərkən axsadığını gördüm, ayaqlarında əyrilik vardı.

Bilmirəm nədən, amma qəribə hisslər keçirirdim. Bir an özümü onun yerinə qoymağa çalışdım, lakin tez bu fikirdən vaz keçdim.

O, öz yerinə keçərkən mənə baxdı və səmimiyyətlə gülümsədi. Mən edəcəyimi bilmədim zorla özümü gülümsəməyə vadar etdim. İlahi! Onun o baxışı heç vaxt gözlərimin önündən getməyəcək sandım. Kim bilir bəlkə də uzun illər getməyəcəkdidə...

Bu əcayib durumdan çıxmaq üçün Rəşada başqa suallar verməyə başladım. "Ən yaxşı kim oxuyur?" , "kim neçənci qrupa hazırlaşır?" tərzində suallar. Məlum oldu ki, oğlanlardan sadəcə İlkin 1-ci qrupa hazırlaşır, amma ümid azdı. Qızlardan isə Dəniz 3-cü qrupa hazırlaşırdı.

Uşaqların özləri ilə danışanda isə hərşey məndəki kimi idi. Hamının maraq dairəsi sosial şəbəkələr, oyunlar, seriallar və s. Universited məsələsində isə "qismət" deyərək keçdik. Havadan-sudan danışarkən necə oldusa söhbət Pərvanəyə gəldi və onun necə biri olduğu barədə çoxlu danışıldı.

*(Davamı 15-ci səhifədə)*

# BİR TƏK ONUN XƏYALI VARDI...

*(Əvvəli 13-cü səhifədə)*

- Məncə o aktyordu... Özünü saf kimi aparır, ancaq içində Şeytan yatır. - Dedi Dəniz.

- Bu nə sözdü belə, ayıbdı. O, xəstədi ona elə demək olmaz, – dedi Həsən.

- Allah hamını bir cür yaradıb, indi bu da belədi də neyləyək? – dedi Xədicə.

- Heç bir şey etməyimizə ehtiyac yoxdu Sara müəllimə necə deyib? Onu yola verək. Bizdə belə edirik. Özü üçün oturubda orda bizə neynirki? - Dedi İlkin.

- Adamın yazıqlığı gəlir, - dedi Rəşad.

Bu deyilənlərə qulaq verərkən; Pərvanə haqqında mən nə düşünürəm? - Deyə düşündüm. Ağlım o qədər qarışdıki, heç bir nəticəyə gələ bilmədim. Bir tək onu sezdim ki, bu qıza qarşı olan marağım daha da artdı. Növbəti tənəffüs onunla danışacağımı qərara aldım. Bu cəsarət marağımdan olsa gərəkdi çünki onun haqqında hamı belə düşünərkən heç kim onunla danışmaq istəyəcəyimi düşünməzdi.

Nəhayətində mən zəngi gözlədim və 2-ci dərsin sonunda hərkəs zəngin səsinə sinifdən çıxdı. Məndə Rəşada bufetdən içməyə birşeylər almağa göndərəndən sonra otaqda yalnız Pərvanə ilə mən qalmışdım.

Mən həyəcan və narahatlıq hissi ilə böyük mücadələ etdikdən sonra Pərvanənin yanına yaxınlaşdım və ona çox aciz səslənən salam verdim.

O, qəribə şəkildə mənə baxdı və gülümsədi sonra salam dedi biraz şirin dillə.

- Mənim adım Samirdi. Bəs səninki? – deyərək əlimi ona uzatdım.

O isə qəribə-qəribə baxmağa davam edərək başını əydi və:

- Sənin xəyalların varmı Samir? – deyə soruşdu.

Heç gözləmədəyim bir cavab bir yana, niyə məhz xəyal soruşmuşdu?

Mən nə deyəcəyimi şaşırdım və kəkələməyə başlamışdım ki, o, davam etdi: - Yoxsa səndə digərləri kimisən Samir? Qorxma mənə düzünü deyə bilərsən Samir.

Mən həm onun qəribə baxışına, həm də verdiyi əcaib sualına elə qərq oldum ki, bir də Rəşadın qolumdan tutub özünə tərəf çəkməsiylə ayıldım.

- Sən burda neynirsən? – qaşlarını qaldıraraq təəcüblə soruşdu.

- Heç... Mənnn. O...

Bu an biologiya müəllimi bizi salamladı və biz yerimizə əyləşdik.

Uzun sürən sükütdan sonra Rəşad pıçıltı ilə sualını təkrar verdi və mən də: - O, məni adımı soruşmaq üçün çağırdı. - Deyərək yalan danışdım.

- Hımm, – dedi və susdu Rəşad, amma içini şübhə bürüdüyü bəlliydi.

Az sonra müəllim kimin dərsə hazır olduğunu soruşdu. Sinif biraz susdu sonra etinasızca hərkəs öz işinə yaxud söhbətinə qayıtdı. Müəllim də heç sualı verməyibmiş kimi jurnalını yazmağa başladı. Lakin bu an yenə məni heyrətə salan mənzərə yarandı ki, o da Pərvanənin lövhəyə çıxıb dərsi danışmağı oldu.

Müəllim başını qaldırıb danışanın Pərvanə olduğunu görəndən sonra yenə jurnal yaza-yaza qızın danışığına cavab olaraq “aha, aha” deyirdi.

- Bugünkü dərsimiz “Rafleziya” digər adıyla cəsəd çiçəyidir. O ən çox İndoneziyada bitir və dünyanın ən böyük çiçəklərindən biri hesab olunur. Çəkisi on bir kiloqram, hündürlüyü doxsan santimetrə qədər uzana bilir. Onun qoxumuş ət iyi verməsi adının da cəsəd çiçəyi olmasına bəraət gətirir...

Pərvanə bunları elə səlis və rahat şəkildə dedi ki, bir an onun əqli probleminin olmasını unutdum. Bu necə olan işdi belə?.. Digərləri isə heç ona məhəl vermir hətta lövhədə olmasına belə fikir vermirdilər.

Artıq mən susmuşdum. Samanlıqda iynə axtaran insan misali məndə ağlımda düzgün fikri tapmağa çalışırdım.

- Bu qız hər dərsi oxuyur? – ciddiyətlə Rəşaddan soruşdum.

- Hər dərs çıxır nəsə özü üçün danışır, müəllimində yazıqlığı gəlir beş yazır, – dedi.

Mən biologiya kitabını açıb onu izlədim və danışığında heç bir səhvlik yox idi və mən get- gedə utanmağa başlamışdım.

Görəsən buradakı həqiqi əqli problemi olan insanlar biziydikmi?

Tənəffüs olan zaman heç kimə aldırmadan Pərvanənin yanına gedib yanında oturdum. Deyəsən o da buna təəccüblənmişdi. Mən isə bir an gözləmədən ona sualımı verdim:

- Bəs sənin xəyalın nədi?

Pərvanə yenidən qəribə baxışları ilə məni xeyli süzdü sonra astaca və şirin dillə danışmağa başladı:

- Oxumaq. Hə, hə oxumaq. Mən oxuyacam Samir, həm də çox oxuyacam. Mən universited də oxuyacam. Həmişə oxuyacam, həkim olacam. İnsanların yaralarını sağaldacam.Sonra da mənim kimi yalnız və istənməyən insanlara sahib duracam. Sonra müəllim olacam. Onları öyrədəcəm. Oxumağı, yazmağı, öyrənməyi öyrədəcəm. Sonra müğənni olacam Samir. Mənim kimilərinə ümid mahnısı oxuyacam və sevgiylə rəqs etməyi örədəcəm. Mən bir yazar olacam... Mənim kimilərin dirçəliş hekayələrini yazacam. Mən bir sevgi olacam Samir onlara sevməyi öyrdəcəm, dünyanı mənim kimi sevməyi öydəcəm onlara. Ən sonda mən bir insan olacam Samir. Bilirsən niyə? “İNSAN” sözünün unudulub yox olmaması üçün...

Mən gözləri dolmuş və susqun şəkildə donub qalmışdım. Mənim zamanım durdu ətraf isə öz vəziyyətində idi. Hər kəs deyib gülür mən isə zamandan qopmuş şəkildə onun qəribə baxan gözlərində tutsaq qalmışdım...

Sakitcə durdum və siniftən çıxdım. Ağlımda sadəcə suallar var idi. Vicdanıma məhkəmə quran suallar.

O, əqli cəhətdən problemi olan biri, biz isə normal sayılan əslində isə bir lunatik imişik. Biz gözü yumlu hara getdiyimizi bilmədən sadəcə gəzən varlıqlar imişik. Tənbəl, yalnız öz çıxarımızı güdən, yalan aludəçisi, saxta münasibətlər şahzadələri...

Bu düşüncələrlə sinifdən çıxmışdım uzun illər öncə. İndi isə onun şəkli olmayan, üzərində yalnız quru adı olan qəbrinin önündə durmuş və ona sonsuz təşəkkür edirəm. Xəstəliyi üzündən xəyalları reallaşmadı bəlkə də, amma o mənim həyatdakı ən böyük müəllimim oldu.

Bəzən insanın xəyalı belə dünyaya sığmır, onun xəyallarının olduğu kimi.

Sonsuz təşəkkürlər qaranlığa belə ümid olacaq Pərvanə...

Mənə insan sözünün mənasını öyrətdiyin üçün...

***Son***



***Elvin URŞAN***

Kredo .- 2022.- 29 iyun.- S.13;15.